

# Aşıq Ələsgərin həyatının əsas tarixləri

- Aşıq Ələsgər 1821-ci ildə qədim zamanlardan aşıq sənətinun, sazın və onun müşayiəti ilə yaradılan sözün məskəni olan Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur.

- Atası Almənməd kişi əkinçilik, dülgərlik etməklə yanaşı bədahətən qoşma, gəraylı, bayatı demək bacarığına malik olmuş, hörmətli şəxs kimi el-oba içində sayılıb-seçilmişdir.

- Aşıq Ələsgər təhsil almasa da, el şənlikləri onun üçün ilk məktəb rolunu oynamışdır. Uşaq yaşlarından saza, sözə məhəbbət bəsləmiş, el məclislərində aşıqlardan eşitdiklərini güclü yaddaşına həkk etmiş, onları istənilən anda söyləmək bacarığı ilə hamını heyrətləndirmişdir.

- Ailəni dolandırmaqda çətinlik çəkən atası Ələsgəri 13-14 yaşı olanda Ağkilsə kənd sakini Kərbəlayı Qurban adlı bir varlıya nökər vermiş və Ələsgər 4 il orada nökərçilik etmişdir.

- Bu illər ərzində Kərbəlayı Qurbanın yeganə qızı Səhnəbanı ilə Ələsgər arasında ilk sevgi hisləri yaranmışdır. Lakin yeniyetmə Ələsgərin ilk məhəbbəti uğursuz olmuşdur. Kərbəlayi Qurbanın varlı qardaşı Məhərrəm gənclərin məhəbbətindən xəbər tutub Ələsgəri qovdurmuş, Səhnəbanını isə öz oğluna almışdır. Ələsgərə ağır təsir etdən bu hadisə , nakam məhəbbətin doğurduğu kədərli hiss və duyğuları, düşüncələrini sazla, sözlə deməyə sövq etmişdir.

- 17-18 yaşı olanda atası Ələsgərin saza, sözə, Aşıq sənətinə böyük həvəsini və istedadını görüb aşıq sənətinin sirlərini, ədəb və mərifət qaydalarını öyrənmək üçün qızılvənğli ustad sənətkar Aşıq Alının yanında şəyirdliyə qoymuşdur. Təcnis Alıdan (ondan öncə isə atası, şair Alməmməddən) beş ilə yaxın müddətdə kamil dərs alan Ələsgər özü də bu sənətə yeni gələnlərin ustadına çevrilmişdir.

- Şəyirdlik dövrü başa çatdıqdan sonra Aşıq Alı toy məclisində Ələsgərlə deyişmiş, şəyirdini sənətkar kimi tanıtmaq, ucaltmaq üçün qəsdən məğlub olmuş, sazını ona bağışlamaq istəmişdir. Lakin Ələsgər öz ustadına ehtiramını bildirmiş, bu mükafatdan imtina edərək bədahətən məşhur “Ağ damar, damar” təcnisini demişdir.

- Öz ustadının xeyir-duası ilə Ələcgər əvvəlcə Göyçədə aşıqlıq etmiş, az müddət içərisində el-obada sənətkar kimi tanındıqdan sonra isə həm də İrəvan,

Naxçıvan, Qazax, Qarabağ, Gəncə, Kəlbəcərə el şənliklərinə dəvət edilmiş, şöhrəti hər tərəfə yayılmışdır.

- Özündən əvvəlki ustad aşıqların ədəbi-bədii irsini dərindən-dərin mənimsəyən Ələsgər bu sahədə elə bir zirvəyə ucalmışdır ki, sələfləri ondan əbədi olaraq bəhrələnmişlər.

- Aşıq Ələsgər ustad sənətkar kimi tanındıqdan sonra özü də aşıq sənətini öyrənmək istəyən istedadlı gəncləri şəyirdliyə qəbul etmiş, xeyli sayda aşıq yetişdirmişdir.

- Dədə Ələsgər kimi şöhrət qazanan Aşıq Ələsgərin nəslindən aşıq şeirlərinin müxtəlif formalarında yazan iyirmidən artıq aşıq və şairlər yetişsə də onlar Ələsgər sənətinin zirvəsinə yüksələ bilməmişlər.

- Digər yaradıcı ozanlardan fərqli olaraq, Dədə Ələsgər aşıq poeziyasında xüsusi iz açan öz dövrünədək məlum olmayan şeir növlərində danışmış, bir sözlə, Göyçə aşıq məktəbini yaratmışdır.

- İlk məhəbbətini unuda bilməyən Ələsgər uzun illər subay qalmış, 40 yaşında Kəlbəcərin Yanşaq kəndindən olan Anaxanım adlı qızla ailə qurmuşdur.

- El-obanın böyük ehtiram bəslədiyi aşıq ömür boyu zəhmətə bağlı olmuş, əkin-biçinlə, dülgərliklə məşğul olmuşdur.

- 1905-ci ildə erməni daşnaklarının törətdiyi milli qırğın, axıdılan nahaq qanlar Aşıq Ələsgər yaradıcılığına təsirsiz ötüşməyib.

- Təxminən 1908-ci ildə oğlu Bəşirin Aşığın xalası oğlu Molla Rəhimi bilmədən güllə ilə öldürməsi ona güclü təsir edib və cənazəsi üstündə "Kəsildi" rədifli şeirini söyləmişdir.

- 1915-ci ildə sənətkarın ailəsində daha bir bədbəxt hadisə baş verir. Həmin il vaxtilə şəyirdi olmuş qardaşı oğlu, həm də kürəkəni Aşıq Qurbanı vaxtsız itirir. Bundan sonra qocaman aşıq bir daha əlinə saz almır.

- 1916-cı ildə Aşığın oğlu Əbdüləzimi kəndin kovxası Məşədi Qasım qamçı ilə döydüyünə görə Aşığın böyük oğlu Bəşir kovxanı güllə ilə vuraraq qaçaq düşür. Kovxa ölməsə də Aşıq Ələsgərin oğlu Əbdüləzim və qardaşı oğlu Xəlil həbs edilir. Aşıq bu işin üstündə xeyli əziyyət çəkir və onları min bir əziyyətlə azadlığa çıxarmağa nail olur.

- 1917-ci ildə Xəlilin vəfatı Aşığın qəm-qüssəsini bir az da artırır.

- Ömrünün son illərində ailəsində və vətənində baş verən faciəli hadisələr aşığı sarsıdır və səhhətini pozur.

- 1918-ci ildə erməni daşnakları Azərbaycan türkləri yaşayan kəndlərə hücum çəkərək, evləri talan olunmuş, yandırılmış, günahsız insanları qətlə yetirir.

- Həmin ildə erməni daşnakların Ələsgərin sevimli şagirdi Aşıq Nəcəfin belinə qaynar samovar bağlayaraq qətlə yetirməsi böyük sənətkara sarsıdıcı təsir göstərir.

- 1918-1921-ci illərdə Göyçə mahalının erməni vandalları, daşnaklar tərəfindən darmadağın edilməsi nəticəsində ahıl yaşında Aşıq Ələsgər Göyçədən qaçqın düşərək ailəsi ilə Kəlbəcərin Qanlıkənd (Qalaboyunu) yaşayış məntəqəsində məskunlaşır.

- Dərdinin üstünə dərd gələn aşıq yalnız üç il sonra ailəsi ilə doğma Ağkilsə kəndinə qayıda bilir.

- El kədərini aşıq özünün “Gözlə, gözlə sən”, “Bu yerdə tapılmaz”, “Dolansın” şeirlərində ifadə edir.

- 1922-ci ildə Aşığın ömür-gün yoldaşı Anaxanım dünyasına dəyişir.

- 1924-cü ildə Aşıq dövlət tərəfindən İrəvana dəvət olunsa da, o bu təklifdən imtina edir.

- 1926-ci il mart ayının 7-də ustad aşıq doğulduğu Ağkilcə kəndində vəfat etmiş və orada dəfn edilmişdir.

- 1927-ci ildə ilk mətbu əsərləri – “Dağlar”, “Bizim dağlar” şeirləri “Yeni kənd” jurnalında (№3) çap olunmuşdur.

- 1934-cü ildə Hümmət Əlizadənin tərtib etdiyi “Aşıq Ələsgər” adlı kitabı çap olunmuşdur.

- 1971-ci ildə Osman Sarıvəllinin “Qüdrətli şair, ustad sənətkar” adlı kitabı nəşr edilmişdir.

- 1972-ci ildə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə anadan olmasının 150 illik yubileyi Moskvada qeyd olunmuşdur, Göyçənin Ağkilsə kəndində büstü qoyulmuşdur.

- Azərbaycan Elmlər Akademiyası tərəfindən əsərlərinin ikicildlik elmi nəşri hazırlanaraq çap edilmişdir.

- 1975-1980-ci illərdə Respublika Xalq Yaradıcılığı Evi Aşıq Ələsgərin adını daşımışdır.

- 1987-ci ildə Nizaməddin Onk və İslam Ələsgərzadənin tərtib etdikləri “Göyçəli Aşıq Ələsgər” adlı kitab Türkiyədə çap olunmuşdur.

- 1990-cı illərin əvvəllərində Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar

- 1990-cı ildə Şəmkir rayonunda Zəyəm çayının sahilində yerləşən Badakənd (“samanlıqda olan kənd”) Aşıq Ələsgərin şərəfinə Ələsgərli adlandırılıb.

- 1993- ci ildə Muxtar Qaradaşlının tərtib etdiyi “Gözüm bir alagöz xanıma düşdü: say-seçmə şeirlər” adlı kitab “Yazıçı” nəşriyyatında işıq üzü görmüşdür.

- 24 noyabr 1997-ci il tarixində "Aşıq Ələsgərin 175 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikasının dünya şöhrətli ümummilli lideri Heydər Əlirza oğlu Əliyev sərəncam vermişdir.

- 1997- ci ildə Eldar İsmayılın tərtib etdiyi “Aşıq Ələsgər. Hikmət dünyası” adlı kitab çap olunmuşdur.

- 1998- ci ildə Aşıq Ələsgərin anadan olmasının 175 illiyi Azərbaycanın hər yerində böyük təntənə ilə qeyd olunmuşdur.

- 1999- ci ildə İslam Ələsgərin tərtib etdiyi “Aşıq Ələsgər. Əsərləri, dastan–rəvayətlər, xatirələr” adlı kitab “Şərq-Qərb” nəşriyyatı tərəfindən çap edilmişdir;

- İslam Ələsgərin “Haqq aşığı Ələsgər” monoqrafiyası çapdan çıxmışdır;

- 2002-ci ildə əslən Göyçədən olan Hüseyn Həsənov sənətkara dərin ehtiramının nümunəsi olaraq Bakıda öz evində “Aşıq Ələsgər Muzeyi”ni yaratmışdır.

- 2006-ci ildə Şəkər Qasımovanın “Aşıq Ələsgər şeirinin leksik–üslubi xüsusiyyətləri” adlı kitabı nəşr olunmuşdur.

- 2007-ci ildə İslam Ələsgərin “Ələsgər ocağı ilə bağlı yaradılmış dastan–rəvayətlər haqqında” adlı kitabı işıq üzü görmüşdür.

- 2008-ci ildə Qabil Zimistanoğlunun tərtib etdiyi “Aşıq Ələsgər. Bütün əsərləri” adlı kitab nəşr olunmuşdur.

- 2009-ci ildə Qabil Zimistanoğlunun tərtib etdiyi “Aşıq Ələsgər. Bütün əsərləri” adlı kitab nəşr olunmuşdur.

- 2011-ci ildə M.F.Axundov adına Milli Kitabxananın əməkdaşları tərəfindən “Aşıq Ələsgər–190” biblioqrafiyası tərtib olunmuşdur;

- A. Qurbaninin tərtib etdiyi “Adım Ələsgərdir, Göyçə–mahalım...” adlı kitab işıq üzü görmüşdür;

- İslam Ələsgərin tərtib etdiyi “Aşıq Ələsgərin hikmət dünyası” adlı kitab çap olunmuşdur;

- Anadan olmasının 190 illik yubileyi Heydər Əliyev Sarayında təntənə ilə qeyd olunmuşdur;

- Gədəbəydə “Aşıq Ələsgər adına Aşıq Məktəbi” açılmışdır;

- Azərbaycan Aşıqlar Birliyi 2011-ci ili “Aşıq Ələsgər” ili elan etmişdir

- 2012-ci ildə Musa Nəbioğlu Azərbaycan Aşıqlar Birliyinin “Ustad aşıqlarımız” seriyasından olan “Aşıq Ələsgər” adlı kitabı tərtib etmişdir.

- 2013-ci ildə Hacı Loğman Babacanlının “Aşıq Ələsgər. O, eşq pərvanəsi deyil, eşqin əbədiyanar Şamıdır!” adlı kitabı işıq üzü görmüşdür;

- Gədəbəydə Gədəbəy Aşıq Musiqisi Məktəbinin qarşısında ucaldılmışdır.

- 2014-ci il Aşıq Ələsgərin “Bütün əsərləri” işıq üzü görmüşdür;

- “Can” deməklə candan can əskik olmaz...: Seçilmiş əsərləri” çap olunmuşdur.

- 2017-ci ildə Məhərrəm Hüseynovun “Aşıq Ələsgərin söz ümmanı” və “Linqvistik təhlilin elmi-metodik əsasları: Aşıq Ələsgərin dili əsasında” kitabları işıq üzü görmüşdür;

- Hüseyn İsmayılovun “Aşıq Ələsgər” monoqrafiyası çapdan çıxmıçdır;

- Xaçmaz şəhərindəki Şəxsiyyətlər muzeyinin önündəki parkda Aşıq Ələsgərin büstü ucaldılmışdır.

- 2018-ci ildə Qazax şəhərində xatirəsinə ucaldılmış büstü ucaldılmışdır.

- 2019-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may, 211 nömrəli Qərarı ilə Aşıq Ələsgər Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

- 2021-ci il 18 fevral tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam imzalamışdır;

– “Dədə Ələsgər Ocağı” İctimai Birliyi təssis olunmuşdur